# MÜSTƏQİLLİK DÖVRÜ MƏTBUATI

Bu gün Azərbaycan milli mətbuatının yaranmasından 150 il ötür. Ölkədə ilk mətbu orqanın - əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş "Əkinçi" qəzetinin nəşrə başladığı 22 iyul tarixi 1991-ci ildən Azərbaycanda Milli Mətbuat günü kimi qeyd olunur.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbuat orqanı-qəzet və jurnal fəaliyyət göstərir.

Müstəqillik illərində müasir KİV sisteminin aparıcı qolunu təşkil edən müstəqil radio və televiziya kanalları yaranmış, geniş informasiya məkanında öz yerlərini möhkəmləndirməyə nail olmuşlar. Bu dövr, həmçinin müstəqil informasiya agentliklərinin, internet informasiya portallarının yaranması və strukturlaşması dövrü kimi xarakterizə olunur.

Bütün Sovet Sosialist Respublikası İttifaqında (SSRİ) başlayan yenidənqurma havası Azərbaycan da ictimai mühitə kəskin təsir göstərdi. Millətin dirçəliş dövrü kimi tarixdə qalan 1989-cu ildə "Azərbaycan" qəzeti yaradıldı. Müstəqil mətbuatın qaranquşları hesab edilən "Səhər" qəzeti 1989-cu ilin 4 avqust tarixində və "Azadlıq" qəzeti 1989-cu ilin 24 dekabr tarixində işıq üzü gördülər. "Səhər"ə tanınmış jurnalist Məzahir Süleymanzadə, "Azadlıq"a tanınmış jurnalist Nəcəf Nəcəfov rəhbərlik edirdilər.

1990-cı ildə "Zerkalo", "Səs", 1991-92-ci illərdə "Yeni Müsavat", "İki Sahil", "525-ci qəzet", "Yeni Azərbaycan" qəzetləri nəşr olunmağa başladı.

Milli mətbuatımızın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mətbuatımızın inkişaf tarixində də yeni mərhələ açdı.

Ulu Öndərin 1998-ci il 6 avqust tarixində imzaladığı “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında” fərmanı uzun illər senzura şəraitində fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin sərbəst inkişafı üçün şərait yaratdı.

Ümummilli Lider Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında “Dövlət sirri haqqında” (1996), “Mətbuat azadlığı haqqında” (1998), “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” (1998) Azərbaycan Respublikasının qanunlarının qəbulu mətbuat sahəsində atılan mühüm addımlardan oldu. 1999-cu ilin dekabr ayında KİV haqqında yeni qanunun qəbulu və sonralar əlavələrin edilməsi Avropa Şurasının rəy və təklifləri əsasında hazırlandı. Hazırlanan hər bir qanun demokratik ölkələrin təcrübəsinə əsaslanır və KİV-in fəaliyyət mexanizmini təşkil edir.

Heydər Əliyevin siyasi iradəsi nəticəsində plüralizm, söz və mətbuat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırıldı. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğv olunması ilə dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edildi.

2000-ci ilin mart ayında Azərbaycan Prezidentinin sərəncamı ilə “2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə Tədbirlər Proqramı” təsdiq olundu. Proqrama əsasən jurnalist kadrları hazırlayan təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, KİV-in istifadə etdiyi rabitə, nəqliyyat, kommunal xidmətlər üçün minimal xidmətlər nəzərdə tutulmuşdu. KİV-in inkişafına həmişə qayğı göstərən Prezidentin 2001-ci il 20 iyul tarixli “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə

dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" fərmanı ilə respublikaya gətirilən qəzet kağızına gömrük rüsumu ləğv olundu, həmçinin qəzetlərə kreditlər verilməsi qərara alındı.

Heydər Əliyevin 5 sentyabr 2002-ci il tarixli sərəncamı ilə kütləvi informasiya vasitələrinin inkişafı üzrə layihələrin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondundan 3 milyon manat ayrıldı. Bütün bunlarla yanaşı, qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcları da donduruldu. Prezidentin gördüyü tədbirlər respublikada mətbuatın inkişafına müsbət təsir göstərdi.

2002-ci ildə Heydər Əliyev "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.

Müstəqil Azərbaycanın ictimai - siyasi həyatının bütün sahələrində olduğu kimi, mətbuat sahəsində də demokratik prinsiplərə dönmədən əməl olunur. 2003-cü il martın 15-də jurnalistlərin I qurultayında Mətbuat Şurasının yaradılması mətbuatın özünütənzimləməsi prosesini uğurla həyata keçirdi. MŞ-ın yaradılmasını jurnalistlər "tarixi hadisə" kimi qiymətləndirdi. On illik təcrübə göstərdi ki, MŞ mətbuat işinin yenidən qurulmasında, jurnalistlərin peşəkarlığının artmasında onların cəmiyyətdəki mövqeyinin möhkəmlənməsində az rol oynamadı.

Ulu Öndərin mətbuata və mətbuat nümayəndələrinə göstərdiyi diqqət və qayğı Ümummilli Liderin layiqli varisi Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığı tam təmin olunub. Təsadüfi deyil ki, hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib.

2005-ci ildən başlayaraq, mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və jurnalist əməyinin qiymətləndirilməsi məqsədilə bir sıra fərman və sərəncamlar imzalandı. 2005-ci ilin sentyabrında "İnformasiya əldə etmək haqqında" Qanun təsdiq edildi. Həmin ilin iyulunda milli mətbuatın 130 illiyi Prezidentin sərəncamı ilə ölkə miqyasında qeyd edildi. Jurnalistlər dövlət mükafatına və fəxri adlara layiq görüldü. 2006-cı ildə qəzetlərin "Azərbaycan" nəşriyyatına olan 450 min ABŞ dolları həcmində borcu dövlət büdcəsindən ödənildi.

Prezident İlham Əliyevin 31 iyul 2008-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin (KİV) inkişafına Dövlət Dəstəyi Konsepsiyası (DDK)" kimi mühüm bir sənəd təsdiq olunmuşdur. Konsepsiyaya uyğun olaraq 22 may 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (DDF) yaradılmışdır. Fondun yaradılmasında məqsəd Azərbaycanda fikir, söz və məlumat azadlığı şəraitini yaxşılaşdırmaq, o cümlədən buna xidmət edən kütləvi informasiya vasitələrinə dövlət dəstəyi idi.

2010-cu ildə Azərbaycan milli mətbuatının 135 illiyi Prezident İlham Əliyevin sərəncamı ilə Bakıda və respublikanın bölgələrində yüksək səviyyədə qeyd edildi. Prezidentin imzaladığı sərəncam mətbuata göstərilən qayğının bariz nümunəsidir: Hazırda Azərbaycanda fəaliyyət göstərən yüzlərlə KİV vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayır.

2010-cu il 22 iyulda Prezident İlham Əliyev Mətbuat Şurasının yeni binasının açılışında iştirak etdi - mətbuatın cəmiyyətdəki rolunu, Mətbuat Şurasının ölkəmizdə dövlət qurumları ilə media arasında əməkdaşlığın inkişaf etdirilməsindəki fəaliyyətini yüksək qiymətləndirdi. Habelə, jurnalistlərin hüquqlarının qorunması işində öz prinsipial mövqeyini həmişə bildirməsini, ümumiyyətlə, ölkədə söz azadlığının, demokratiyanın inkişafı istiqamətində Mətbuat Şurasının çox böyük addımlar atdığını qeyd etdi. Ölkə başçısının fəaliyyəti mətbuat, söz azadlığı və

plüralizm sahəsində Azərbaycan dövlətinin yeritdiyi siyasətin əsasını təşkil edir. Söz yox ki, həyata keçirilən bütün tədbirlər jurnalistlər tərəfindən böyük razılıqla qarşılanır.

Azərbaycan Prezidenti İlham Əliyev 2010-cu ilin yekununa görə "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdür. Bu mükafat medianın inkişafında müstəsna xidmətləri olan şəxslərə, ictimai - siyasi və dövlət xadimlərinə verilir. Mükafatın təqdimat mərasimində çıxış edən dövlət başçısı İlham Əliyev demişdir: "Bu mükafatın verilməsi böyük məna daşıyır. Çünki ölkə Prezidentini "Jurnalistlərin dostu" adına siz tərəfdən layiq görməyiniz, əlbəttə ki, Azərbaycanda azad mətbuatın inkişafında görülən işlərə işarə vurur. Mən bundan sonra da çalışacağam ki, Prezident kimi Azərbaycanda azad mətbuatın inkişafı üçün dəstəyimi verim və beləliklə, ölkəmizin sürətli və uğurlu inkişafını təmin edim".

Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində qazandığımız qalibiyyət medianın inkişafına impuls vermiş, yeni mərhələnin başlanmasını şərtləndirmişdir. Vətən müharibəsi zamanı dövlət başçısının müharibənin gedişatı haqqında sosial media üzərindən verdiyi məlumatlar nəinki sosial media istifadəçiləri və yerli jurnalistlər, hətta xarici müxbirlər üçün də əsas informasiya hesab olunurdu.

Azərbaycan Vətən müharibəsində şanlı Zəfər qazanaraq və unikal antiterror əməliyyatı ilə hərb tarixinə yeni səhifə yazaraq, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoymuş, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərmiş, Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratmışdır.

Vətən müharibəsində qələbəmizdən az sonra başlanan islahatlar, o cümlədən "Media haqqında" Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləmişdir. Vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq hüququnun verilməsi və digər tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlılığını təmin etmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 12 yanvar tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı özündə köklü dəyişiklikləri əks etdirməklə qarşımıza yeni və daha məsuliyyətli vəzifələr qoymuşdur.

"Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı. MEDİA agentliyinin yaradılması ölkəmizdə media sahəsində islahatların daha sürətlə aparılmasına və dərinləşdirilməsinə imkan vermişdir.

Fərmandan irəli gələn yeniliklər Azərbaycan mediasının şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılmasına şərait yaradacaq, modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi kimi qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinin, innovativ yanaşmaların tətbiqinə təkan verəcəkdir. Media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, vətəndaş və cəmiyyət üçün ictimai maraq doğuran layihələrin həyata keçirilməsinin təşkili, həmçinin dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə

orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi MEDİA Agentliyinin fəaliyyətinin əsas prioritetlərindəndir.

Azərbaycan Respublikasının Prezidenti müstəqil milli dövlətimizin inkişafında mətbuatın rolunu və xidmətini çox yüksək qiymətləndirərək bu ziyalı zümrəyə daim diqqət və qayğı göstərmişdir.

Milli mətbuatın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-lərə yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər mətbuata və mətbuat işçilərinə qayğının tərkib hissəsidir.

150 illik şərəfli tarixə sahib olan milli mətbuatımız bundan sonra da Azərbaycanın milli maraqlarının müdafiəsində, cəmiyyətin maarifləndirilməsində və dövlətçilik ideyalarının təbliğində öz missiyasını uğurla davam etdirəcək.

Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 25 aprel 2025-ci il Sərəncamında qeyd olunur: "Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda, media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır".